# Marneuli Munisipalitetində yaşayan etnik azlıqların siyasi iştirakının gücləndirilməsi

Siyasət sənədi

Təqdim edilən siyasət sənədinin hazırlanması "Etnik azlıqların siyasi iştirakını həvəsləndirmək və hökumət səviyyəsində effektiv demokratik iştirak mexanizmlərinin tətbiqi" layihəsi çərçivəsində, Milli Demokratiya İnstitutunun (NDI) dəstəyi ilə mümkün olmuşdur. EMC layihəni icma Radiosi "Marneuli" və Xuldərə, Qasımlı, Ağməmmədli və Aşağı Saral icma mərkəzlərinin, yerli aktivistləri özündə birləşdirən təşəbbüs qrupu ilə sıx əməkdaşlıq yolu ilə həyata keçirir.

Sənədin məzmununa İnsan Hüquqları üzrə Təhsil və Monitorinq Mərkəzi(EMC) cavabdehdir. O, USAİD, ABŞ Hökuməti və ya NDİ-nin fikirləriylə üst-üstə düşməyə bilər.


Müəlliflər: Kamran Mammadli, Teoana Piranişvili

Rəhbər: Tamta Mikeladze

Tərcümə: Aitac Khalilli

## Mövcud vəziyyət və kontekst

### Əsas siyasi iştirakçılar və iştirak amilləri

Marneuli Munisipalitetində yaşayan etnik azlıqların siyasi iştirakının təhlili, mərkəzi səviyyədə mövcud olan problemləri müzakirə etmədən qeyri-mümkündür. Halhazırda Gürcüstan, bəyan olunduğu kimi, vətəndaş milliyətçiliyinin inşa yolunda irəliləyir. Ölkə konstitusiyasında qeyd olunub ki,  irqə, dəri rənginə, cinsiyyətə, etnik mənsubiyyətə, dilə, dinə və yaxud başqa əlamətlərə görə diskriminasiya (ayrı-seçkilik) yol verilməzdir və ölkənin siyasi həyatında bütün Gürcüstan vətəndaşları bərabərdir (Gürcüstan Konstitusiyası, 2018). Lakin, tez-tez ölkənin siyasi həyatı üçün dar etnik-dini milliyətçiliyin xüsusiyyətləri özünü göstərir (Zedania, 2011) hansı ki, etnik azlıqları əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə salır və Gürcüstanın milli ifadərində onları "evdəki yad" kimi təsvir edir (Nodia, 2009).

Praktik siyasətdə bu ifadəni yüksək vəzifəli şəxslərin və siyasətçilərin açıqlamalarında da oxumaq olar.

Beləki, 2018-ci il Novruz təbrikində Gürcüstanın Baş Naziri, Gürcüstanın azərbaycan dilli əhalisinin Azərabaycanla – onların „tarixi vətənləriylə" əlaqələrini itirməməsindən məmnun olduğun bildirib (Kvirikaşvili, 2018).  2019-cu ildə isə Gürcüstan Parlamentinin Təhsil, Elm və Mədəniyyət Komitəsinin sədri Mariam Caşinin verdiyi açıqlamada, onun Konstitusiyanın təməl prinsiplərini lazımı səviyyədə dərk etmədiyini və Gürcüstan vətəndaşlarını etnik mənsubiyyətinə görə təsnif etdiyini görmək mümkündür (Bərabərlik Koalisisyası,  2019).  Sülh və vətəndaş bərabərliyi üzrə sabiq nazir Paata Zakareişvili etnik azlıqlara yönəlik dövlət siyasətində təhlükəsizlik perspektivinin və yanaşmaların problemli olması haqqında danışıb. Müsahibələrinin birində, Zakareişvili bildirib ki, nazir olduğu müddətdə Dövlət Təhlükəsizlik Xidmətinin müdaxiləsi və nəzarəti olmadan böyük əhəmiyyətə malik olmayan qəraları belə qəbul edə bilmirdi (Zakareişvili, 2019).  Aydındır ki, mərkəzi hakimiyyətdə etnik azlıqlara yönəlik mövcud ifadələr yerli özünüidarəetmə orqanlarının fəaliyyətində də özünə yer tapmışdır.

Gürcüstandakı etnik azlıqların siyasi iştirakının aşağı səviyyəsi çoxsaylı araşdırmalarda da üzə çıxır. Sosial Tədqiqatlar və Təhlil İnstitutu (İSSA) tərəfindən 2018-2019–cu illərdə keçirilən tədqiqatlar göstərir ki, Gürcüstanda etnik azlıqların maraqalarını təmsil edən hər hansısa bir siyasi partiya yoxdur. Bununla yanaşı, həmin qrupların siyasi iştirakını dəstəkləyəcək heç bir pozitiv mexanizm (məs, etnik azlıqların kvotası) də mövcud deyildir. Aparılan araşdırma həmçinin onu da göstərir ki, etnik azlıqların yerli səviyyədə təmsil olunması və siyasi prosseslərdə iştirakı çox zəifdir.Yerli özünüidarəetmə orqanlarında seçilən vəzifələrdə etnik azlıqların nümayəndə sayı, müvafiq munisipalitetin əhalisinin etnik bölgüsünün çox aşağısındadır.

2017 – ci ildə etnik azlıqların kompakt şəkildə məskunlaşdığı və ümümilikdə 102,788 etnik gürcü, 90, 370 etnik erməni və 170, 830 etnik azərbaycanlı əhalidən təşkil olan 8 munisipalitetdə (Bolnisi, Marneuli, Qardabani, Dmanisi, Tsalka, Axaltsixe, Axalkalaki, Ninotsminda) yerli özünüidarəetmə seçkilərini nəticələrini araşdıran Multikulturalizm və Etnik Mənsubiyyət mövzuları üzrə tədqiqat mərkəzinin (CSEM) məlumatına görə, yuxarıda qeyd olunan 3 icma (etnik gürcü, etnik erməni, etnik azərbaycanlı) Sakrebulo seçkilərində müvafiq olaraq 132, 81 və 58 yer qazandı. Bu isə o deməkdir ki, Sakrebuloda orta hesabla 779 etnik gürcü payına 1 nümayəndə düşür, halbuki 1,116 etnik erməni və 2,945 etnik azərbaycanlı  hər biri uyğun olaraq  1 nümayəndə ilə təmsil olunur. Bu rəqəmlər, bütövlükdə azlıqların Sakrebuloda etnik gürcülərdən daha az təmsil olunduqlarını göstərir (Istitute for Social Studies and

Analysis, 2019). Bu baxımdan, Marneuli munisipaliteti xüsusilə maraqlıdır, çünki əhalinin 84% -inin etnik azərbaycanlılardan ibarət olmasına baxmayaraq, onlar Sakrebuloda seçilən deputatların yalnız 42%-ni təşkil edirlər (Istitute for Social Studies and Analysis, 2019). Sosial Tədqiqatlar və Təhlil İnstitutu (ISSA) tərəfindən aparılan bir araşdırma göstərir ki, etnik azlıqların 69,9% -i heç vaxt özünüidarəetmə orqanlarına şəxsi maraqları üçün müraciət etməyiblər, respondentlərin 76,5% -i isə yerli idarəetməyə ictimai ehtiyaclar üçün müraciət etmədiklərini bildiriblər. İllərdir, Marneuli munisipalitetində mövcud olan yalnız gürcü dilindən istifadə praktikası, beynəlxalq öhdəliklərə (FCNM) və dövlət dili haqqında qanunun tələblərinə zidd olaraq, etnik azlıqların iştirakını təmin edə bilmir və yerli hakimiyyət orqanları ilə ünsiyyəti məhdudlaşdırır. Kvemo Kartli bölgəsində İnsan Hüquqlarının Tədris və Monitorinq Mərkəzinin (EMC) fəal işi onu göstərir ki, Gürcüstanın etnik azərbaycanlı icmasında siyasi iştirak, həyati mənbələrin və əsas sosial proqramların əlçatanlığı problemi gündəmdə hələ də öz varlığını qoruyur (EMC-Etnik azlıqların hüquqi statusu - EMC dəyərləndirməsi - 2019). Xalq Müdafiəçisi nəzdində etnik azlıqlar şurasının monitorinq sənədinə əsasən, etnik azlıqların dövlət qulluğunda işlə təmin olunma səviyyəsi Gürcüstanın bölgələrinə görə dəyişir. Axalkalaki və Ninotsmindada dövlət xidmətində çalışan əhalinin böyük əksəriyyəti (80%) etnik ermənidir. Sözügedən munisipalitetlərdə bələdiyyə orqanlarında rəhbər vəzifələri (Qamgebeli və Sakrebulo sədri) məhz etnik azlıqlar tutur. Bu baxımdan Kvemo Kartlidə vəziyyət fərqlidir. Etnik azərbaycanlılar Marneuli, Bolnisi, Dmanisi və Qardabanidə sayı olaraq çoxluq təşkil etsələr də, bu munisipalitetlərdə yaşayan azərbaycanlıların sayı tutduqları dövlət vəzifələrində mütənasib şəkildə əks olunmur. Məsələn, Marneuli bələdiyyəsində çalışan 217 işçidən yalnız yetmiş dörd nəfəri etnik azərbaycanlıdır (Etnik Azlıqlar Şurası, monitorinq sənədi, 2018).

2014-cü ildə Gürcüstan əhalisinin siyahıya alınmasına əsasən, Marneulidə əhalisinin 84%-ni etnik azərbaycanlılar, 7%-ni isə etnik ermənilər təşkil edir (Etnik və Multikulturalizm Araşdırma Mərkəzi, 2018). Yuxarıda qeyd olunan məlumatlara əsasən, etnik azlıqlar Marneuli bələdiyyəsinin siyasi və ictimai həyatının əsas iştirakçılarından biridir və onların xüsusi ehtiyacları və qayğıları munisipalitet idarəsinin planlaşdırılma və həyata keçirilməsində öz əksini tapmalıdır.

EMC-nin araşdırmasına görə, Marneuli Mədəniyyət Mərkəzinin işində etnik azlıqların ehtiyacları və problemləri nəzərə alınmır (Şalvaşvili, 2019). Bu fakt, Munisipalitetin fəaliyyətində etnik azlıqların səsini gücləndirmək üçün munisipalitetin iş sistemində etnik azlıqların tərkibinin çoxalmasının vacibliyini göstərir. Bu baxımdan, Marneulinin yeni seçilmiş meri önəmli faktorlardan biri sayıla bilər. Etnik azərbaycanlı olan və 2019-cu ilin may ayında yerli əhalinin böyük dəstəyi ilə seçilən Zaur Darğallı, vəzifəyə gəldikdən sonra Marneuli üçün maraqlı və yeni təşəbbüslərə (manreulifm.ge, 2019) başladı. Ancaq munisipalitetin yeni təşəbbüslərində hələ də etnik azlıqların ehtiyacları əks olunmayıb. Marneuli Sakrebulosunda öz kəndlərini və ya icmalarını majoritar mandatlarla təmsil edən etnik azərbaycanlı üzvlərin olması təqdirə layiqdir (Mərkəzi Seçki Komissiyası, 2017). Qeyd etməliyik ki, sözügedən şura üzvlərinin əksəriyyəti dövlət dilini bilmirlər və bu səbəbdən icmalarının ehtiyaclarını məclis, büro və ya komissiya iclaslarında tez-tez səsləndirə bilmirlər. Buna görə də onların rəsmi qərar qəbuletmə mexanizmlərində iştirakı və təsiri minimaldır.

Marneuli munisipalitetinin siyasi həyatında gürcü dilinin üstünlük siyasəti gürcü dilini bilməyən vətəndaşları munisipalitetin ictimai həyatından uzaq salır. Beləki, özünüidarəetmə prosesində iştirak yalnız gürcü dilində mümkündür və Marneuli munisipalitetində yaşayan etnik azlıqların əksəriyyəti dövlət dilində danışa bilmədiyindən, onların siyasi iştirakını gücləndirmək çətindir. Bu amil əhəmiyyətli dərəcədə əhalini munisipalitetin siyasi proseslərindən  uzaqlaşdırır və qeyri-bərabər vəziyyətə salır (EMC, 2019).

Belə olan halda, Azərbaycan dilli Gürcüstan vətəndaşlarını öz diasporu kimi qəbul edən və bu formatda Gürcüstanın Azərbaycan dilli  vətəndaşları tərəfindən qeydiyyata alınan qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edən Azərbaycan dövləti, Marneuli munisipalitetinin siyasi həyatında vacib bir rol oynayır (diaspora.gov.az, n.d.). Üstəlik bəzi yerli sakinlər iddia edirlər ki, Azərbaycan dövləti Marneulinin siyasi həyatına müdaxilə etməyə və vətəndaşların seçki davranışlarına təsir göstərməyə çalışır (Natiqqızı, 2019).

Bu tip vəziyyətlərdə, etnik azlıqların munisipalitetin ictimai və siyasi həyatında iştirakına və gücləndirilməsinə siyasi partiyalar xidmət etməlidir. Ancaq Gürcüstanın digər bölgələrində olduğu kimi, Marneuli munisipalitetində də siyasi partiyalar zəif təmsil olunur. Marneuli munisipalitetində fəal şəkildə işləyən siyasi partiyalar isə çox vaxt özlərinin əvvəlcədən müəyyən edilmiş gündəmlərinə uyğun hərəkət edirlər və etnik azlıqların ehtiyaclarını və səslərini irəli sürmək üçün işləmirlər. NİMD-in araşdırmasına görə, yerli əhali çox vaxt siyasi partiyaların onlara qarşı marağının seçkiylə əlaqəli olduğunu və fəaliyyətlərinin, adətən, seçkiqabağı dönəmdə aktivləşdiyini, seçkilərdən sonra isə icmayla ünsiyyətin əhəmiyyətli dərəcədə zəiflədiyini qeyd edir. Partiyalar düzgün seçki kampaniyaları aparmırlar və ümumiyyətlə, öz siyasi proqramlarına etnik azlıqların inteqrasiyası üçün çox az yer ayırırlar (NIMD, 2017).

Belə olan şəraitdə, Marneuli bələdiyyəsinin ictimai və siyasi həyatında qeyri-hökumət sektorunun aktiv işi müsbət amil olaraq dəyərləndirilir. Marneuli İcma Radiosunun, "Radio Marneuli"nin munisipalitetdə Azərbaycan və gürcü dillərində məlumatı əlçatan etməsindəki aktiv rolu diqqətəlayiqdir. Munisipalitetdə öz kəndlərində gənclik və icma mərkəzləri quran və təşkil və təbliğat yoluyla icmanı narahat edən problemləri həll etməyə çalışan gənc fəallar yetişirlər.

Xüsusilə diqqət çəkən məqam, Gürcüstanda və həmçinin etnik azlıqlarda qadınların zəif siyasi iştirakı məsələsidir. Marneuli Bələdiyyəsinin rəsmi saytında olan məlumatların təhlili göstərir ki, etnik azərbaycanlı qadınlar Marneuli munisipalitetinin Sakrebulosunda təmsil olunmur. Merianın bölmə və ya şöbə sədrlərinin heç biri etnik azərbaycanlı qadın deyil. Həmçinin, munisipalitetinin inzibati hissələrin heç birində meria təmsilçisi etnik azərbaycanlı qadın deyil (marneuli.gov.ge, n.d.).

Əksəriyyəti təşkil edən etnik azlıqların xüsusi ehtiyacları və qayğıları munisipalitetin gündəlik fəaliyyətində əks olunmadığını halda Gürcüstan Pravoslav Kilsəsinin xüsusi rolundan yüksək vəzifəli rəsmilər də tez-tez danışırlar (Lobjanidze, 2019). Bundan əlavə, Marneuli və Hujabi Yeparxiyasının maliyyələşdirilməsi üçün hər il külli miqdarda vəsait ayrılır (Chkhitunidze, 2019). Marneuli Bələdiyyəsinin 2020-ci ilin təsdiqlənmiş büdcəsinə əsasən, Yeparxiya üçün nəzərdə tutulan maliyyə 400.000 GEL-ə qədər artırıldı (Marneuli Bələdiyyəsi, 2019).

Siyasi və iqtisadi klanların təsiri və gücü, munisipalitetin siyasi həyatındakı ən böyük çətinliklərdən biri olaraq qalır. Yerli sakinlərin bəziləri iddia edirlər ki, siyasi və iqtisadi klanlar etnik azlıqların səslərini tez-tez zəiflədir və sıxışdırırlar (Əliyev və Badasyan, 2016). Qafqaz Tədqiqat Resurs Mərkəzinin təhlilinə görə isə, etnik azlıqların yaşadığı bölgələrdə seçki və siyasi mühit get-gedə pisləşir (CRRC Georgia, 2019).

## Marneuli Munisipaliteti özünüidarəetmə orqanlarına - Meria və Sakrebulo üçün təklif olunan tövsiyyələr

1.Marneuli munisipalitetinin özünüidarəetmə səviyyəsində vətəndaş cəmiyyəti təşkilatları və icma fəalları ilə aktiv məsləhətləşmələr yolu ilə vətəndaş bərabərliyi və mədəni müxtəliflik mövzusunda strategiya və fəaliyyət planının qəbul edilməsi və həyata keçirilməsi.

Bu məqsədlə vacibdir ki,

- Strategiya və fəaliyyət planının sənədləri Marneuli munisipalitetində yaşayan Gürcüstanın azərbaycanlı icmasının və digər etnik azlıqların qarşılaşdığı siyasi, mədəni və sosial problemlər haqqında mövcud tədqiqatlara dayansın;
- Strategiya və fəaliyyət planı sənədləri, inter alia, Gürcüstanın Azərbaycan dilli icmasının və digər etnik azlıqların siyasi iştirakı, dövlət qulluğunda işlə təmin olunması, sosial və digər xidmətlərdən yararlanması, dil siyasəti, mədəniyyət siyasəti və qadınların siyasi iştirakı məsələlərini də əhatə etsin;
- Strategiya və fəaliyyət planı sənədlərini hazırlamaq və icra etmək məqsədiylə sözügedən sənədin yaradılması, icrası və monitorinqinə cavabdeh xüsusi şöbə/katiblik yaransın;
- Demokratik konsultasiyalar yolu ilə, vətəndaş bərabərliyi və mədəni müxtəlifliyi dəstəkləmək üçün, insan hüquqları təşkilatlarının nümayəndələri və icma fəallarından təşkil olunmuş məşvərət şurası yaradılsın. Şura heyətini komplektləşdirərkən, munisipalitet əhalisinin etnik tərkibini və onun demokratiya, inklüzivlik və partiya bitərəfliyi prinsiplərini nəzərə almaq önəmlidir.
- Məşvərət Şurasının Əsasnaməsi, mütləq şəkildə, aşağıdakılardan ibarət olmalıdır:
    - Şura iclaslarının müntəzəmliyi;
    - Şura heyəti yenilənməsi mexanizmlərinin bütün maraqlı tərəflər üçün əlçatanlığı;
    - Yerli özünüidarəetmə orqanlarının şura qarşısındakı məsuliyyət mexanizmləri və formaları;
- Vətəndaş bərabərliyi və mədəni müxtəlifliyin təşviqi üzrə məşvərət şurasının mədəniyyət mərkəzi tərəfindən tədbirlərin planlaşdırmasında və illik iş planlarının hazırlamasında fəal iştirak etməsi və digər fəaliyyətlərdə mədəniyyət mərkəzinə məsləhət və tövsiyələr verməsi vacibdir; Marneuli munisipalitetin siyasi qərarlarının, o cümlədən munisipalitetin müvafiq strategiya və fəaliyyət planlarını, büdcənin hazırlanması vətəndaş bərabərliyi və mədəni müxtəliflik üzrə məşvərət şurası ilə sistematik konsultasiyalar yolu ilə işlənməsi vacibdir;

- Bütün əhəmiyyətli fəaliyyətlərin nəticələrini müəyyənləşdirərkən və qiymətləndirərkən, munisipalitetin coğrafi (şəhər və kənd), gender və etnik nişanlarının istifadə metodologiyasını işlənməsi və tətbiqi vacibdir;
- Marneuli munisipalitetinin və Sakrebulonun öz iç qurumlarında etnik azlıqların işlə təmin olunma səviyyəsinin artırılmasına yönəlik konkret müsbət təsirə malik siyasət və effektiv ölçülərin qəbul etməsi mühümdür.

## 2. Yerli özünüidarəetmə kodeksinə əsasənlanaraq, mövcud vətəndaş iştirakı mexanizmlərinin gücləndirilməsi

- Marneuli munisipalitetinin sədrinin qamqebeli (mer) məşvərət orqanı olan "Mülki Məşvərət Şurasının" gücləndirilməsi.

    - Munisipalitet Məşvərət Şurası heyətini toplarkən, sözügedən şuraya ictimai/təşəbbüs qrupları tərəfindən namizədliyini irəli sürmüş, yüksək etimada sahib ictimai xadimlərin cəlb edilməsini nəzərə almalıdır. Bu, Məşvərət Şurasının Munisipalitet sədrinin merin (Gamgebeli) şəxsi fikri ilə deyil, cəmiyyətin geniş təbəqələrinin iştirakı ilə qurulmasına imkan verir və onu daha qanuni edir.
    - Mülki Məşvərət Şurasının iclasları həm Şura üzvlərin, həm də iştirakçıların iclaslarda iştirakina heç bir maneə olmaması üçün etnik azlıqların dillərinə tərcümə olunmalıdır;
    - Mülki Məşvərət Şurasının, kodeksdə nəzərdə tutulduğu kimi, ən azı üç ayda bir dəfə iclas etməsi vacibdir. İclasın vaxtı və günü dəyişməz olmalıdır ki, sakinlər şuranın iclasından daim xəbərdar olsunlar. Yığıncağın protokolları ictimaiyyətə açıq olmalıdır və munisipalitetin saytına yerləşdirilməlidir;
    - Vətəndaşlara və ya bir qrup vətəndaşa şura iclasını çağırmağa və/və ya təşəbbüsləərini/təkliflərini Məşvərət Şurasına baxılması üçün təqdim etmələrinə icazə verilməlidir;
    - Munisipalitetin illik planları, büdcələri və strategiyaları işlənməzdən öncə Mülki Məşvərət Şurasının üzvləri öz təşəbbüslərini təqdim etsinlər, bununla yanaşı özünüidarəetmə orqanlarının ötən ilin fəaliyyətini qiymətləndirsinlər;
    - Bu tövsiyələrə uyğun olaraq və etnik azlıqların ehtiyaclarını nəzərə alaraq, Mülki Şuranın Əsasnaməsi Munisipalitetinin qərar qəbul etmə prosesində Mülki Şuranının fəal iştirakını təmin etməsi və Marneuli Munisiplaitetində mövcud olan xüsusi ehtiyacları əks etdirməsi üçün yenidən nəzərdən keçirməlidir;
- Yaşayış məntəqlərinin ümumi yığıncaq mexanizmlərinin gücləndirilməsi.
  Bu məqsədlə Meria və Sakrebulo
    - Kənd məclislərinin siyasi əhəmiyyətini, xüsusən, etnik azlıqların

siyasi gündəmlərə təsir edə bilmə və siyasi iştirakla bağlı çoxsaylı əlavə çətinliklərlə üzləşdiyi şəraitdə dərk etməli və yaşayış məntəqələrinin yığıncaqlarının real siyasi potensialını qaytarmalıdırlar;

  - Yaşayış məntəqəsinin ümumi yığıncağı, onun istifadə olunma qaydaları və önəmi haqqda yerli icmanı öz dillərində məlumatlandıracaq, uzun müddətli təbliğat kampaniyası planlaşdırsın;
  - Yaşayı məntəqəsinin ümumi yığıncağının dəstəklənməsi və təşkili, həmçinin ehtiyacların tədqiqatı üçün demokratik metodologiyalar haqqda rəhbər sənəd hazırlamalıdırlar və bu üsulların öyrənilməsi üçün yerli icma rəhbərlərinə xüsusi proqramlar təklif edib, gələcək ümumi yığıncaqları məhz bu biliklərə əsaslanaraq planlamalıdırlar;
  - Yaşayış məntəqəsinin ümumi yığıncağı yerli sakinlərə öz ehtiyacları, qayğıları və maraqları haqqında real müzakirələr aparmaq və demokratik qərarlar qəbul etmək fürsəti vermək üçün ədalətli və rasional şəkildə hazırlanmış cədvəl əsasında planlaşdırılmalıdır. Dövlət orqanları aşağıdan yuxarıya doğru təşkil olunmuş proseslərin və aşağı, yaşayış məntəqəsi səviyyəsində, demokratik siyasi mədəniyyətin və iştirakçı təcrübələrinin dəstəklənməsində müzakirə / müşavirənin vacibliyini dərk etməlidirlər;
  - Yaşayış məntəqəsinin ümumi yığıncağının iştiraka dayalı formatda təşkili üçün əlavə tədbirlər görməli, əhalini hər hansı bir şəkildə fərqləndirmədən çəkinməli və qadınların iştirakını artırmaq üçün fövqəladə və sistematik tədbirlər görməlidirlər;
  - Müvafiq metodologiyalardan istifadə edərək və real müzakirə / müşavirə formatlarını yaradaraq icmanın həqiqi ehtiyaclarını müəyyənləşdirməli və yerli siyasəti mövcud problemlərə əsasən yaratmalıdırlar;
  - Ümumi yığıncaqların baş tutması üçün uyğun mühit və infrastruktur təmin etməlidirlər;
  - Ümumi yığıncaq mexanizminin yerli əhali arasında siyasi proseslərə qarşı inam və ümidin təməli olduğunu başa düşməli və onlara yüksək məsuliyyətlə yanaşılmalıdır.

- Vətəndaşların özünüidarəetmə fəaliyyətində iştirak mexanizmi kimi petisiyanın rolunun gücləndirilməsi:
  - Petisiya, onun istifadə qaydaları və önəmi haqqda yerli icmanı öz dilində məlumatlandıracaq uzun müddətli təbliğat kampaniyası planlaşdırmalıdırlar;
  - Marneuli munisipalitetinin veb saytının bazasında vətəndaşların onlar üçün önəm kəsb edən təşəbbüsləri yerləşdirə biləcəkləri petisiya portalı yaradılmalıdır.

## 3. Dil barierinin aradan qaldırılması

- Sakrebulo və Sakrebulo Komissiyasının iclasları müntəzəm və sinxron şəkildə Azərbaycan dilinə tərcümə olunmalıdır;

- Sakrebulo tərəfindən baxılacaq sənədlər də Azərbaycan dilinə tərcümə olunmalıdır. Sənədlər Sakrebulo üzvlərinə əvvəlcədən təqdim edilməlidir;
- Merin illik hesabatları və şifahi çıxışları Azərbaycan dilinə tərcümə olunmalıdır;
- Gürcü dilini bilməyən vətəndaşlar üçün, inzibati fəaliyyət, açıq məlumat materialları və həmçinin dövlət məmuru ilə şifahi ünsiyyət üçün tərcümə vasitələri yaradılsın;
- Önəmli hüquqi və siyasi sənədlər, mərkəzi və munisipal xidmətlər və qrant müraciətləri haqqda məlumatlar müntəzəm olaraq Azərbaycan dilində tərcümə olunub və ictimayətə açq şəkildə yerləşdirilsin.

## 4. Marneuli Munisipalitetinin büdcəsini tərtib edərkən dini neytrallığın qorunması

- Marneuli şəhər meriyası, dünyəvi dövlətin konstitusiya prinsipinə zidd olduğundan, dini qurumları dini məqsədlərlə maliyyələşdirməyi dayandırmalıdır;
- Dini qurumlar üçün büdcə vəsaitinin ayrılması yalnız ictimai / dünyəvi məqsədlər üçün (sosial xidmətlər (sığınacaqlar, sosial yeməkxanalar, sosial xidmətlər və s.)), müstəsna hallarda əsaslandırıla bilər.

## 5.Qadınların siyasi iştirakının təşviqi

- Siyasi prosesslərdə qadınların səsini gücləndirmək üçün, qadınların ehtiyaclarına və ictimai-siyasi həyatda iştiraklarına yönəldilən, Marneulinin Merinin müavini / Müşaviri vəzifəsi yaradılsın. Sözügedən vəzifəyə yüksək ictimai etimada sahib, qadın hüquqları üzrə iş təcrübəsi olan, munisipalitetdə yaşayan qadınlar arasında sıx əlaqələr və etibarlı münasibətlər yarada biləcək etnik azərbaycanlı qadının təyini xüsusi önəm daşıyır;
- Marneuli Meriası və Sakrebulo qadın hüquqlarının qorunmasına və qadınların siyasi iştirakına yönəlik strategiya və fəaliyyət planı hazırlamalı və bu prosesə qadınların qarşılaşdığı problemlər üzərində işləyən təşkilatlar və yerli aktivistlər fəal şəkildə cəlb edilməlidir;
- Yuxarıda göstərilən bütün tövsiyələri yerinə yetirərkən, munisipalitet qeyri - dominant etnik azlıq nümayındəsi qadınların səslərinin gücləndirilməsinə xüsusi diqqət yetirməlidir.